**Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Rusiya Federasiyası hökumətinin 15 noyabr 2006-cı il tarixli 683 -li qərarına əsasən, 2007-ci il yanvarın 15-dən ölkə ərazisində miqrantların ticarətlə məşğul olmasına məhdudiyyət qoyulur. Qərar müvafiq olaran bu ölkədə ticarətlə məşğul olan çoxsaylı Azərbaycan vətəndaşlarına da şamil olunacaqdır.

Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının rastlaşacağı problemlərin həlli məqsədilə **qərara alıram:**

1. Rusiyada ticarət fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin öyrənilməsi və həlli ilə bağlı aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:[1]

***Komissiyanın sədri***[2]

*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikasının xarici işlər naziri*
*Azərbaycan Respublikasının iqtisadiyyat naziri*
*Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri*
*Azərbaycan Respublikasının daxili işlər naziri*
*Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*
*Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri*
*Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikasının Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Komissiya bir ay müddətində tədbirlər planı hazırlayıb təsdiq etsin və onun həyata keçirilməsini təmin etsin. Görülmüş işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 noyabr 2006-cı il
1788

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 13 fevral 2009-cu il tarixli 61 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“**Azərbaycan” qəzeti, 2009-cu il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 74**)
2. 24 iyun 2009-cu il tarixli 112 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 25 iyun 2009-cu il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 424)**
3. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, 101)**
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
5. 15 fevral 2019-cu il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(“Xalq” qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 294)**

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 13 fevral 2009-cu il tarixli 61 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“**Azərbaycan” qəzeti, 2009-cu il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 74**) ilə 1-ci bəndində "**Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri**" sözləri "**Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri** " sözləri ilə əvəz edilmişdir.

24 iyun 2009-cu il tarixli 112 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 25 iyun 2009-cu il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 424)** ilə 1-ci bəndinin «Komissiyanın üzvləri» bölməsinin səkkizinci abzasında «**Xaricdə Yaşayan Azərbaycanlılarla**» sözləri «**Diasporla**» sözü ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, 101)** ilə 1-ci hissəsində “**iqtisadi inkişaf**” sözləri “**iqtisadiyyat və sənaye**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

[2] 15 fevral 2019-cu il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 294**) ilə 1-ci hissə ilə yaradılmış Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| | ~~**Komissiyanın sədri**~~ |
| ~~Yaqub **Eyyubov**~~ | ~~- Azərbaycan Respublikası Baş nazirinin birinci müavini~~ |
| | ~~**Komissiyanın üzvləri**~~ |
| ~~Elmar **Məmmədyarov**~~ | ~~- Azərbaycan Respublikasının xarici işlər naziri~~ |
| ~~Şahin **Mustafayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~ |
| ~~Füzuli **Ələkbərov**~~ | ~~- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri~~ |
| ~~Ramil **Usubov**~~ | ~~- Azərbaycan Respublikasının daxili işlər naziri~~ |
| ~~Ziya **Məmmədov**~~ | ~~- Azərbaycan Respublikasının nəqliyyat naziri~~ |
| ~~İsmət **Abbasov**~~ | ~~- Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri~~ |
| ~~Nazim **İbrahimov**~~ | ~~- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri~~ |
| ~~Zeynal **Nağdəliyev**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri~~ |
| ~~Əli **Həsənov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi məsələlər şöbəsinin müdiri~~ |
| ~~Novruz **Məmmədov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri~~ |
| ~~Polad **Bülbüloğlu**~~ | ~~- Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli Səfiri~~ |
| ~~Məmməd **Əliyev**~~ | ~~- Ümumrusiya Azərbaycanlıları Konqresinin sədri~~ |